ACCFIN GROUP

Accounting and Finance group

# DƏQİQ, ÇEVİK, ETİBARLI



# HAQQIMIZDA

2019-cu il may ayında Elşad Ağahəsənov tərəfindən təsis olunan "ACCFIN GROUP" MMC Maliyyə və Mühasibatlıq Bürosu ölkə iqtisadiyyatının bu sferasında hesabatlılıq səviyyəsinin artırılması, mühasibatlıq problemlərinin həllərinin tapılması, uçot mexanizmlərinin təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərir. Komandamız istehsalat, ticarət, xidmət sahəsində 15 ildən artıq yüksək peşəkar təcrübəyə malik heyətdən ibarətdir. Müştərilərimizə keyfiyyətli xidmət göstərilməsi üçün ən son yeniliklərə və ən müasir tələblərə uyğunlaşdırılmış proqram təminatlarından və cihazlardan istifadə olunur. Şirkətimizin rəhbərliyi mütəxəssisləri fəaliyyətini davamlı olaraq izləyir və onlara rəhbərlik edir, işin əla keyfiyyətini təmin edir və səhv riskini minimuma endirir.



# FƏRQİMİZ

15 ildən artıq peşəkar təcrübəyə sahib komanda ilə bütün layihələrimizi ən qısa zamanda gecikmədən və zamanında təhvil veririk. "Müştəri bizim var olma səbəbimizdir" prizmasında əməkdaşlığımızın uzun müddətli və uğurlu olması üçün çalışırıq. Heç bir uğursuz işə imza atmamışıq və daim nailiyyətlərimiz bizi irəli aparıb ki, bu da heç bir işə ötəri yanaşmadığımızın göstəricisidir. Müştərilərimizin biznesinin dinamikası, davamlılığı və uğurlarına öz uğurlarımız kimi baxırıq. Məqsədimiz iqtisadi səmərə əldə etməkdən çox keyfiyyətli xidmət göstərməkdir.



# FAYDALARIMIZ

Biznesinizin inkişafının, iqtisadi böyüməsinin və dinamik idarəetməsinin təminatçısıyıq. Sizə IAS və IFRS əsasında maliyyə mühasibatlıq uçotu quraraq bütün təsərrüfat hadisələrinizi dəqiq, düzgün və anlıq hesabat ala biləcəyiniz sistem yaradırıq. Şirkətinizin vergi yükünün azaldılması və maliyyə sanksiyalarından qorunması üçün qanun çərçivəsində maraqlarını qoruyuruq. Dinamik, davamlı və dözümlü idarəetmə modelləri quraraq biznesinizin böyüməsi üçün mühit yaradırıq.

# PORTFEL

# UĞURLARIMIZ

Asiyada ilk dəfə (Gülçülük) gül yetişdirmə və satışı ilə məşğul olan müəssisəyə "Beynəlxalq Mühasibat Uçotu Standartları" əsasında uçot quraraq 50 000-ə yaxın gülün toxumundan başlamış 48-lik dibçəyə qədər bütün böyümə prosesi və bu zaman zərfində maya dəyərlərinin formalaşmasını uçotda əks elətdirmişik.

İstehsalat, ticarət və xidmət sahələrində xidmət göstərən 10-larla müəssisədə uçotun şəffaflaşdırılması, kameral vergi hesablamalarının araşdırılması və ləğv edilməsi, mühasibatlıq proqramlarının yazılması, kadr uçotunun qurulması və biznes prosesinin təşkili xidmətlərini göstərərək yüksək keyfiyyətli mexanimzlər qurmuşuq. Xüsusən də istehsalat, idxalat və xidmət sahələrində beynəlxalq təcrübədən istifadə edərək uçotun avtomatlaşdırılması, maliyyə və qeyri-maliyyə hesabatlarının təkmilləşdirilməsi sahələrində ən son texnologiyalardan istifadə edərək müəssisələrdə "Bizdən əvvəl və Bizdən sonra" effekti yaratmışıq.

"ACCFIN GROUP" komandası olaraq son 2 ildə 20-yə yaxın müəssisəyə "UÇOT BƏRPA" xidməti, 15-ə yaxın müəssisəyə "Autsorsinq Ximdəti", 10-a yaxın müəssisəyə "Mühasibatlıq və İdarəetmə Proqramı" və "Vergi Uçotu Xidməti" ilə bağlı xidmətlər göstərmişik.





# UĞURLARIMIZ

Bütün bunlarla yanaşı “Peşəkar Mühasib Təlimi” tədris proqramımızla 500-dən artıq tələbəyə 5 aylıq təlim vermiş, müəyyən qismini isə baş mühasib və maliyyə rəisi vəzifələrinə çalışmalarını başlatmışıq. Azərbaycanda ilk dəfə tələbələrə qiymətli kağızlarda və QR ilə həqiqiliyi qorunan rəsmi sertifikatlar təqdim etmişik. Bu hüququmuzun qorunması üçün də Diplom və Sertifikatlarda həqiqiliyin qorunması üçün QR kod tətbiq olunmasının Bern konvensiyasına qoşulan 181 ölkə üzrə müəllif hüququnu almışıq.





# PEŞƏKAR MÜHASİB KURSU




Təlimçilər: Elşad Ağahəsənov, Famil Rəhmətov

Təlim metodu: Əyani (praktiki və nəzəri əsaslarla)

Təlim 4 moduldan ibarətdir.

1. İdarəetmə uçotu modulu
2. Vergi məcəlləsinin unikal tətbiq sahələri
3. Mühasibat uçotu (IAS)
4. 1C proqramı mühasibatlıq bazası

- Təlim 42 dərsdən ibarətdir.
- Hər dərs 2 saat davam edir.
- Dərs günləri qruplara görə

- A qrupu 1-ci və 4-cü günlər. Axşam 19:00-21:00
- B qrupu 2-ci və 5-ci günlər. Axşam 19:00-21:00
- C qrupu 3-cü günlər 19:00-21:00, 6-ci günlər 18:00-21:00

Təlim iştirakçılarına sıfırdan audit səviyyəsinə qədər bütün praktiki və nəzəri şəkildə təlim keçirilir. Təlim başlandığı müddətdə həftənin 1-ci dərs günü Mühasibat uçotu yaxud İdarətemə uçotundan 2-ci dərs günü isə qanunvericilikdən dərslər keçirilir. Təlim müdətində sadədən mürəkkəbə doğru 9 müəssisənin məlumatları tapşırıq kimi verilərək mühasibat uçotu qurulur. Dərslər əhatə edir:

- Pul vasitlərinin uçotunun aparılması eləcədə pul köçürmələri
- ƏMAS sistemi və onun tətbiqi
- Onalyn kargüzarlıq
- E-qaimə sisteminin tətbiqi
- Aylıq/rüblük/illik vergi hesabatlarının hazırlanması
- İstehsalat, ticarət və xidmət sahələrində mühasibat uçotunun qurulması

QEYD: Təlimi uğurla bitirənlərə qiymətli kağızlarda QR ilə həqiqiliyi qorunan sertifikatlar təqdim ediləcəkdir.



# KORPORATİV TƏLİM

Təlimçilər: Elşad Ağahəsənov, Famil Rəhmətov

Müəssisə və təşkilatlarda kadrlar biliklərinin artırılması yolu ilə müəssisələrdəki uçotun yaxşılaşdırılması və risklərin minimuma endirilməsi beynəlxalq təcrübədə də rast gəlinən metodlardan biridir. Bununla da daha savadlı yaxud peşəkar kadr axtarmaq yerinə öz loyal kadrlarının biliklərini artıra bilərlər.

Biz ACCFIN GROUP şirkəti olaraq kommersiya müəssisələrinə "Korporativ Təlim" xidmətimizi təklif edirik!

Korporativ təlim xidmətimiz 3 paketdən ibarətdir.

- A CLASS – 18 DƏRS
- B CLASS – 15 DƏRS
- C CLASS – 10 DƏRS

# XİDMƏTLƏR

Məsləhət Xidməti

Bərpa Xidməti

Hüquqi Xidmətlər

Mühasibatlıq və idarəetmə proqramları

Outsourcing Xidməti

ACCFIN GROUP

Accounting and Finance group

**DƏQİQ, ÇEVİK, ETİBARLI**

Startup Xidməti

Vergi uçotu Xidməti

Kadr uçotu Xidməti

BPT Xidməti

Audit Xidməti

# KADR UÇOTU XİDMƏTİ

Kadr uçotu xidməti vergi ödəyicisi üçün peşəkar mütəxəssislərimiz tərəfindən "kadrlar üzrə mütəxəssis" funksiyasını yerinə yetirilməsi və hər ayın sonu məlumat verilməsindən ibarətdir. Belə ki, vergi ödəyicisinin gündəlik, həftəlik və aylıq işçi daxil/xaric olmalarının portala işlənməsi və digər qanunvericilikdə tələb olunan əməliyyatların icrasına zəmanət verilir.



## Tərəfimizdən icra olunan işlər aşağıdakılardır :

- Şirkətlərin strukturunun qurulması.
- Ştat cədvəllərinin tərtibi.
- Kadr sənədlərinin toplanması.
- Vəzifə təlimatlarının hazırlanması.
- Əmrlərin yaradılması və yığımı.
- İşə qəbul, yerdəyişmə və xitam əməliyyatları.
- Əmək müqavilələrin tərtib olunması.
- İşçilərin şəxsi işlərinin yaradılması.
- Məzuniyyət və ezamiyyə cədvəllərinin hazırlanması.
- İşçilərin elektron sistemdə qeydiyyatı.
- İşçi bazasının formalaşdırılması.
- Mükafatlandırma sisteminin tətbiqi.
- KPI sisteminin qurulması.
- Ehtiyyat kadr məsələlərinin həlli.

# AUDİT XİDMƏTİ

Müəssisə daxilində yaranmış problemlər, məsul şəxslər arasında anlaşılmazlıqlar və maxinasiya ehtimalları araşdırılaraq müəyyən olunur. Təqdim olunmuş vergi hesabatları və maliyyə hesabatları audit olunaraq mühasibat uçotundakı çatışmazlıqlar müəyyən olunur.

**Daxili audit:**

Müəssisə daxilində yaranmış problemlərin, məsul şəxslər arasında anlaşılmazlıqların, maxinasiya ehtimallarının və sanksiya risklərinin araşdırılaraq müəyyən olunması.

**Təhvil-təslim proseslərinə nəzarət:**

Baş mühasiblərin, maliyyə rəislərinin və satış təmsilçilərinin məsuliyyətini daşıdıqları sənəd və vəsaitlərin rəsmi şəkildə iştirakımızla təhvil-təslimini həyata keçirmək.

**Audit rəyi:**

Müəyyən əməliyyatların rəsmiləşdirilməsi və illik mənfəət/zərər hesabatlarının təsdiq olunması üçün normativ hüquqi aktlar tərtib olunaraq audit rəyi verilir.

Hər bir sahibkarlıq subyekti biznesin dinamikasının qorunmasında ən vacib rolu oynayan mühasibatlıq sahəsinə ciddi nəzarət etməlidir. Buna görə də rəhbərlik və mühasibatlıq arasında şəffaf auditin təşkil olunmasıüçün 3 - cü şəxs ( ACCFIN GROUP ) tərəfindən sahibkarlıq subyektinin fəaliyyəti audit edilir.



# STARTUP XİDMƏTİ

Biz "ACCFIN GROUP" MMC olaraq yeni fəaliyyətə başlamış şirkətlərin layihələrinin formalaşması üçün maliyyə və mühasibatlıq sahəsində bir sıra xidmətlər təklif edirik.
Maliyyə və vergi uçotunuzun qurulması, yoxlanması və başlanması:
Müəssisənin fəaliyyət dövrü ərzində yarana biləcək hər hansısa bir problemlərin həllində köməklik və həlli; Büdcə xərclərinin hesablanması və vergi yükünün əvvəlcədən hesablanıb proqnozlaşdırılması; Kritik uçot ünsürlərinin parametrlərinin monitorinqi və proqram təminatı üzrə parametrlərinin tənzimlənməsi; İlk fəaliyyət ilində şirkətinizə təmin etdiyimiz uçot strategiyasını düzgün şəkildə çalışmasına nəzarət etməklə, daha sonrakı illərdə yarana biləcək problemlərin qarşısını almış olacaqsınız.
Şirkət qeydiyyatını bizə həvalə etməklə siz vaxtınıza və pulunuza qənaət etmiş olacaqsınız, həmçinin şirkətinizin qeydiyyatı zamanı, imtina almaq riskinizi minimuma endirmiş olacaqsınız.



- Şirkət qeydiyyatı (Nizamnamə, qərar, ərizə və digər sənədlərin hazırlanması, asan imzanın qeydiyyatı, möhür)
- VÖEN-lə işləyən işçilərin qeydiyyata alınması
- Müxtəlif müqavilələrin hazırlanması
- Fiziki şəxslərin qeydiyyata alınması
- Hüquqi sənədlərə dəyişikliklər
- Müəssisələrin ləğvi

# MƏSLƏHƏTÇİ XİDMƏTİ

Məlumdur ki, qanunvericilik tələblərinə uyğun olaraq dövlət qeydiyyatından keçmiş hər bir şirkət öz mühasibat uçotunu aparmalıdır. Qanunvericiliyin daima təkmilləşməsi və dəyişməsini nəzərə alaraq bizim mütəxəssislərimiz mühasibatlıq və vergi məsələləri ilə bağlı yüksək keyfiyyətli məsləhət xidmətlərini təklif edir:

- Vergi uçotu ilə bağlı məsləhətlər
- Mühasibat uçotu ilə bağlı məsləhətlər
- Kadr uçotu ilə bağlı məsləhətlər
- Biznes prosesinin təşkili və proqram təminatı ilə bağlı məsləhətlər.

Bu sferadakı problemlərin aydınlaşdırılması və həllərin təyin olunması 15 ildən artıq peşəkar təcrübəyə malik ekspertlərimiz tərəfindən təqdim olunacaqdır.





# VERGİ UÇOTU

Vergi ödəyicilərinin aylıq, rüblük və illik hesabatlarının düzgün və xətasız tərtib olunaraq təqdim olunması işlərini öz üzərimizə götürürük. Bu hesabatlara daxildir.

**STATİSTİKA**

- ƏMƏK STATİSTİKASI
- KƏND TƏSƏRRÜFATI STATİSTİKASI
- QİYMƏT STATİSTİKASI
- SƏNAYE STATİSTİKASI
- TİCARƏT STATİSTİKASI

**VERGİ**

- ƏDV BƏYANNAMƏLƏRİ
- RÜBLÜK CARİ GƏLİR ARAYIŞI
- ÖMV BƏYANNAMƏLƏRİ
- VAHİD BƏYANNAMƏ
- GƏLİR/MƏNFƏƏT/ZƏRƏR HESABATLARI



# BPT (BİZNES PROSESİNİN TƏŞKİLİ) XİDMƏTİ

“BPT xidməti” vergi ödəyicilərinin, müəssisə və təşkilatların bütün fəaliyyət növlərinin idarəetmə, mühasibat və maliyyə uçotunun təşkilində sıçrayış etməsi üçün göstərilən xidmətdir. Bu xidmət sahibkara, öz fəaliyyətinə, aktivlərinə və maliyyə vəziyyətinə daha mükəmməl nəzarət edə bilməsi üçün əvəzolunmaz üstünlük verir. Öz biznesini genişləndirmək, vergi öhdəliklərini, xərclərini və gəlirlərini planlaşdıraraq hədəflər yaratmağa imkan yaradır. Xidmət 3 moduldan ibarətdir:

• Fəaliyyət sahəsindən, maddi texniki bazasından və insan resurslarından asılı olaraq ən uyğun ” Biznesin İdarə Olunma Modeli” qurulur və müəssisədə maliyyə-təsərrüfat hadisələrinin opertivliyi üçün “İdarəetmə Mexanizmi” yaradılır. Bu mexanizm rəhbər üçün əlavə nəzarət işlərinin, itirilən vaxtın bərpasını və əməliyyatların operativliyini nəzarətdə saxlama imkanı yaradır. Avtomatlaşdırılmış “Qeyri-Maliyyə Hesabatları” təqdim edərək gündəlik, həftəlik və aylıq tərtib edilərək biznesin dinamikliyini təmin edirik.

• Bununla yanaşı İdarəetmə uçotundan emal olunmuş məlumatların düzgün şəkildə inteqrasiya edəcəyi “Mühasibat Uçotu” qurulur və əməliyyatlar “Beynəlxalq Mühasibat Uçotu Standartları” (IAS) əsasında operativ qaydada aparılır. Hesabatlar, sənədləşmələr, müəssisə balansı və digər mühasibat yazılışlarını avtomatlaşdıraraq qüsursuz və rahat uçotun yaradılmasını təmin edirik.

• Mühasibat uçotu tam qurulduqdan sonra ”Maliyyə uçotu” qurulur və artıq “Maliyyə Nəticələri Haqqında Hesabat”, “Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat”, “Balans Hesabatı” və “Kapitalda Dəyişikliklər Haqqında Hesabat”-ların aylıq tərtib olunması, davamlılığı, dinamikası və təkmilləşdirilməsi üçün mühit yaradılır.

*Xidmət tam başa çatdıqdan sonra müəssisə maliyyə rəhbərinə təhvil verilir və istəkdən asılı olaraq müqavilə ilə aylıq konsultasiya xidməti də göstərilir.



# BƏRPA XİDMƏTİ

Uçotda olan problemlərdən dolayı fəaliyyətiniz haqqında hesabat qıtlığı olduğundan vergi  yoxlamaları zamanı təyin olunan sanksiyalarla qeyri-ixtiyari razılaşırsınız?

Müəssisə və təşkilatlarda müxtəlif səbəblərdən dolayı pozulmuş yaxud yanlış qaydada tutulmuş uçotun bərpa olunması xidmətini sizlərə təqdim edirik. “Beynəlxalq Mühasibat Uçotu Standartları” əsasında yenidən uçot quraraq bütün əsassız öhdəliklərdən və maxinasiyalardan xilas olunacaqsınız.

Uçot pozuntusunun yol açdığı artıq və əsassız vergi ödənişlərini, debitor və kreditor borclardakı anlaşılmazlıqları, mal-material və inventar qalıqlarda yaranmış problemləri tamamilə mükəmməl qaydada sıfırdan yığaraq problemlerin həllini və sizə əvvəlki illərinizin tam və düzgün analiz imkanını yaradırıq.

# OUTSOURCING XİDMƏTİ

Müəssisə və təşkilatların mühasibat uçotunun aparılması üçün nəzərdə tutulmuşdur. Bəllidir ki, yaxşı mühasib tapmaq  və müvafiq şərait qurmaq baha başa gəlir. Biz bu xidmətimizlə sahibkarlara  yardım və dəstək olmağı özümüzə prioritet, məqsəd kimi qoymuşuq. Fəaliyyət növündən asılı olmayaraq istənilən sahə üzrə uçotun təşkilini, hesabatlılığını və davamlılığını təmin edirik.



# MÜHASİBATLIQ VƏ İDARƏETMƏ PROQRAMLARI

İdarəetmənin, hesabat almanın və nəzarətin asanlaşdırılması, dinamikası və sarsılmazlığının təmin olunması üçün proqram təminatları üzərində uçot qurmaq istəyən sahibkarlar çox çətin seçim qarşısında qalırlar. Məhz yanlış addım atmaqdan çəkinən və işini etibarlı əllərə təslim etmək istəyən sahibkarlara öz xidmətimizi təqdim edirik. Maksimum keyfiyyətdə və minimum büdcə ilə sahibkara vaxt itirmədən ən qısa müddətdə  uçotun proqram üzərində qurularaq keyfiyyətli idarəetməsinin təminatını veririk. Biz bu xidmətimizlə sizin uçotunuzun davamlılığını, möhkəmliyini və keyfiyyətini sizin ayaqlarınıza gətiririk.





# HÜQUQİ XİDMƏTLƏR

## AYLIQ HÜQUQİ XİDMƏTLƏR

• Təsis sənədlərinə dəyişikliklərin əlavə edilməsi, müəssisələrin yenidən təşkili.

• Sahibkar və direktor arasında mübahisələrin nizamlanması.

• Cəmiyyətin idarə olunmasında səhmdarlara öz hüquqlarının izah olunması.

• Korporativ əlaqələrin tənzimlənməsi üçün hüquqi məsləhətlərin verilməsi.

• Azərbaycan dilində müqavilələrin bütün növlərinin (alğı-satqı, xidmət, icarə, kirayə, əmək müqaviləsi və digər müqavilələrin və onların əlavələrinin, eyni zamanda bütün növ aktların və protokolların) tərtib edilməsi və hüquqi ekspertizasının aparılması.

• Əmək münasibətləri ilə əlaqədar meydana gələn mübahisələrlə bağlı (intizam və maddi məsuliyyət daxil olmaqla) sənədləşmə işlərinin təşkili və icrasına nəzarət;

• Şirkətin və ya sahibkarın işgüzar (biznes) fəaliyyəti ilə bağlı şifahi və yazılı strateji-hüquqi konsultasiyanın verilməsi;

• Hüquqi ekspertiza və biznes-layihələrin müşayiəti.

• Kommersiya fəaliyyəti üçün hüquqi məsləhətlərin verilməsi.

# MÜSTƏQİL HÜQUQİ XİDMƏTLƏR



**1. Korporativ Hüquq**

• Bütün növ hüquqi şəxslərin qeydiyyatı, ləğvi, birləşməsi, bölünməsi, ayrılması və gələcək fəaliyyətin hüquqi tənzimlənməsi.

• Azərbaycan, Türk, Rus və İngilis dillərində Beynəlxalq müqavilələrin bütün növlərinin (alğı-satqı, xidmət, icarə, kirayə, əmək müqaviləsi və digər müqavilələrin, onların əlavələrinin, aktlarının və protokolların) tərtib edilməsi və hüquqi ekspertizasının aparılması.

• Sahibkarların hüquqlarının üçüncü şəxslərin qanunsuz hərəkətlərindən müdafiəsi

• Müştərilərin əmlak və şəxsi qeyri-əmlak hüquqlarının, işgüzar nüfuzunun müdafiəsi.

• Banklar və digər kredit təşkilatları ilə yaranmış mübahisələrin həlli.

• Problemli debitor borcların geri qaytarılması, borc öhdəliklərinin idarə olunması.

• Hüquqi Audit xidməti.

**2. İqtisadi mübahisələrin həlli və məhkəmələrdə nümayəndəlik**

• Fiziki və hüquqi şəxslərin maraqlarının bütün məhkəmə instansiyalarında müdafiə olunması.

• Müştərinin iqtisadi fəaliyyət sahəsində cinayət və inzibati işlər üzrə hüquq və mənafelərinin qorunması.

• Müştərilərin daxili işlər orqanları, prokurorluq, vergi orqanları, gömrük, polis və s. kimi nəzarət orqanları ilə münasibətdə hüquq və maraqlarının qorunması.

**3. Əqli mülkiyyət sahəsində xidmətlər**

• Əqli mülkiyyət hüquqlarının (IP rights) (əmtəə nişanları, patentlər və s.) Azərbaycanda və istənilən xarici ölkədə qeydiyyatı və mühafizəsi;

• Startap layihələri üçün müxtəlif növ müqavilələrin və digər sənədlərin (User Agreement, Non-Disclosure Agreement, Partnership Agreement, Confidentiality Agreement) hazırlanması və hüquqi ekspertizasının aparılması;

• Əqli mülkiyyət hüquqlarının (IP rights) başqa şəxslərə ötürülməsi (icarəyə verilməsi və ya satılması) üçün Lisenziya müqaviləsinin tərtib edilməsi və rəsmi qeydiyyata alınması;

• Françayzing müqaviləsi və onun əlavələrinin tərtib edilməsi.

**4. Miqrasiya sahəsində xidmətlər**

• Xarici vətəndaşlar üçün Azərbaycanda yaşama və işləmə icazələrinin alınması və onların müddətinin uzadılması;

**QEYD: Bütün hüquqi xidmətlər Azərbaycan, Türk və İngilis dillərində təqdim edilir.**

ACCFIN GROUP
Accounting and Finance group

DƏQİQ, ÇEVİK, ETİBARLI

# Təşəkkürlər!


ACCFİN GROUP
@accfingroup
ACCFIN GROUP MMC

Cfo@accfin.az
www.accfin.az
Ə. Rəcəbli 31, Aztex Plaza

Direktor: 070/050 684 28 88
Maliyyə direktoru: 070 878 28 88
Koordinator: 070 800 28 88


***Göstərdiyimiz xidmətlərin keyfiyyətinə və düzgünlüyünə tam məsuliyyət daşıyırıq!***